

# KÜTLƏVİ KOMMUNİKASİYA VƏ İFADƏ AZADLIĞI

## kursu üzrə proqram

(magistr pilləsi)

Partnership for Good Governance

Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq

EUROPEAN UNION

COUNCIL OF EUROPE

CONSEIL DE L'EUROPE

**Tərtibçilər:** Aynur Kərimova, filologiya elmləri üzrə fəlsəfə doktoru, Bakı Dövlət Universitetinin dosenti
Ələsgər Məmmədli, hüquqşünas, media hüququ üzrə ekspert

**Rəyçi:** Jelena Surculija Milojevic, Belqrad Universitetinin müəllimi

Bu nəşr Avropa İttifaqı və Avropa Şurasının birgə “Azərbaycanda ifadə azadlığı və media azadlığı” layihəsinin vəsaiti ilə ərsəyə gəlmişdir. Burada ifadə olunan fikirlər heç bir halda Avropa İttifaqının və ya Avropa Şurasının rəsmi mövqeyi kimi qəbul edilə bilməz.

Bu nəşrin tam və ya bəzi hissələrinin təkrar nəşri, eləcə də tərcüməsi ilə əlaqədar müraciətlər Kommunikasiyalar İdarəsinə ünvanlanmalıdır: publishing@coe.int

Bu nəşr ilə bağlı hər hansı digər yazışma Media İdarəsinə ünvanlanmalıdır.

@ Avropa Şurası, 2017-ci il

***1.Kursun  məqsədi***

Əsas məqsəd mediada ifadə azadlığı anlayışını və onun hüququ qaynaqlarını Avropa hüququ müstəvisi ilə müqayisəli şəkildə tələbəyə hərtərəfli tanıtmaqdır.

***2. Kursun arzu olunan nəticələri***

Bu kursu uğurla başa vuran magistrant:

- İfadə azadlığı hüququ ilə bağlı Azərbaycan və Avropa mənbələrindən faydalana biləcək;
- Mediada ifadə azadlığı ilə bağlı məsələlərə aid təhlil apara biləcək;
- İfadə azadlığını tənzimləyən qanunlar və bilgiləri dolğun şəkildə ifadə edə biləcək;
- Azərbaycan və Avropada ifadə azadlığı ilə bağlı araşdırma apara biləcək.

***3. Kursun məzmunu və həmin məzmunun strukturu***

Bu dərsdə Azərbaycan və Avropa media hüququ konkekstində ifadə azadlığı, insana olan etibarı zədələyən hüquqa zidd davranışlar, xəbər qaynağının gizliliyinin qorunması, medianın müxtəlif sahələrində ifadə azadlığına aid təməl hüquqi sənədlər, dövlət sirrləri haqqında qanunvericilik öyrənilir. Kurs bir semestr ərzində, 15 həftə boyu tədris olunacaq. Proqram 15 əsas mövzu ətrafında formalaşdırılıb.

**4. Tələb olunan dərsliklər və dərs vəsaitləri**

**Əsas:**

1. "İfadə Azadlığı Avropa İnsan hüquqları Avropa Konvensiyasının 10-cu maddəsinin şərhi və məzmunu üzrə bələdçi", Tobi Mendel, Bakı -2012.
2. "Media hüququ: Jurnalistin hüquq bələdçisi", Media Hüququ İmstitutu, Bakı -2011.
3. "Gün işığı Bələdçisi", Media Hüququ İnstitutu, ATƏT Media Azadlığı Ofisi, Bakı -2006.

4. ”Jurnalistin Hüquq Məsləhətçisi” Media Hüququ İnstitutu, İnternyus, Bakı- 2001.
5. Medya Hukuku, Eric Barendt, Lesley Hitchens, 2013.
6. Özgür Medya Mevzuatı Raporu, Kerem Batır-Cem Pekman, Medya Enstitüsü-2003.
7. ”Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqlarının Müdafiəsi Mexanizmləri”, Vəsaitlər Toplusu Bakı- 2012.

**Əlavə:**

1. “Law and the Media”, Crone, T.:, 4th. Ed., Focal Press, 2002.
2. “Media Law”, Carey, P./Sanders, J3rd. Ed., Sweet & Maxwell, 2004.
3. “Law and the Media, Sweet &amp”, Hadwin, S./Bloy, D.: Maxwell, 2007.
4. “Gün işığı qaçılmazdır”, Media hüququ İnstitutu, Bakı-2005.
5. ”Azərbaycanda Televiziya və radio fəaliyyətinin hüquqi vəziyyəti” Media Hüququ İnstiruru, ATƏT Media Azadlığı Ofisi, Bakı-2007.
6. “Medianın Seçkilərdə İştirakının Hüquqi Əsasları”, Media Hüququ İnstitutu –İnternyus, Bakı- 2003.
7. “Demokratik Toplumda İfade Özgürlüyü; Özgürlukçü Bir Perspektiv”, Mustafa Erdoqan, Liberal Düşüncə, Sayı 24, Güz- 2001, Ankara.
8. “İnformasiya Əldə Etmək Haqqında Azərbaycan Respublikası Qanunun şərhi”, Gənc İnsan Hüquq Müdafiəçiləri İctimai Birliyi, Bakı - 2006.
9. “İnternet Hüququ”, Yayımların Monitorinq Mərkəzi, Bakı, 2009.
10. “Media peşakarları üçün əl kitabı”, Jurnalist Həmkarlar İttifaqı, Bakı, 2012.
11. “Jurnalist-Hüquqçu Münasibətləri-Bələdçi”, Media Hüququ İnstitutu, Qanun Nəşriyyatı, Bakı, 2012.
12. “İnternet üzərindən yayılan məlumata görə etik və hüquqi məsuliyyət”, Jurnalist Həmkarlar İttifaqı, Bakı, 2014.
13. “Azərbaycanda İctimai Yayım”, Ələsgər Məmmədli, ”Media

Hüququ İnstitutu, İnternyus, Bakı -2004.
14. «Teleradio Yayımı Düzənləmə Qurulları», Ələsgər Məmmədli, Rəşid Hacılı, Media Hüququ İnstitutu –İnternyus, Bakı -2003.
15. “Jurnalistika Bələdçisi”, Akif Qurbanov, Bakı, “OL” NTK, 2017.
16. “Avropa İnsan Hüquqları Konvensiyasına əsasən şəxsi həyata və ailə həyatına hörmət Hüququnun Qorunması”, İvana Roagna, Avropa Şurasının insan hüquqları üzrə bələdçi vəsaitləri, Avropa Şurası, Strasburq, 2012.

***5. Bu kurs magistr təhsil pilləsi üçün nəzərdə tutulub.***

***6. Fənn əsas- məcburi fənndir.***

***7. Tədris metodları***

Tədris metodlarına mühazirə, məşğələ, mövzuya aid video və prezentasiyalar, praktik məşğələlərin sintezi daxildir.

***8. Kursun tərdis saatı***

Kurs maqistr pilləsi, 2-ci il, birinci semestr tədris üçün nəzərdə tutulub. Bir semestrə 15 akademik tədris həftəsi daxildir. Hər həftə üçün bir dərs (2saat), hər həftədən bir isə daha bir dərs – cəmi 15 həftə boyu 15X3=45 saat. Bu saatlardan 20 saatı mühazirə və 25 saatı seminar məşğələləridir. Hər tələbəyə 1 saat məsləhət saatı ilə, bütünlükdə bu kurs 46 saat təşkil edir.

***9. İmtahana buraxilmaq meyarları və yekun imtahan kriteriyaları***

Bu kurs üçün magistr 50 bal toplamalıdır. Bu qiymətləndirmə Bakı Dövlət Universitetinin əsasnaməsinə uyğun aparılır (iştirak - 10 bal, prezentasiya - 10 bal, seminar məşğələlər - 25 bal, mühazirə qeydləri- 5 bal və imtahan 50 bal).

55 bal keçid balıdır, 86 və yuxarı bal əla qiymər sayılır. Semestrin sonunda imtahan keçirilir, bütün kurs boyu keçirilən, müzakirə edilən mövzular imtahan suallarında əks olunur. İmtahan biletlərinin hər birində 5 sual olur.

# I. İFADƏ AZADLIĞI

## 1. İfadə azadlığına və öz rəyində qalmaq azadlığına giriş

**İfadə azadlığı nədir?**
Bu mövzu ümumiyyətlə ifadə azadlığının mahiyyətinin açılmasını əsas hədəf götürür. İfadə azadlığının mahiyyəti, ifadə formaları işlənir, izah olunur. İfadə azadlığının tarixi inkişafına nəzər salınır. İfadə azadlığının ilk dəfə beynəlxalq sənədlərdə yer almasından bəhs edilir. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin, BMT-nin Mülki və siyasi hüquqlara dair Paktının 19-cu maddəsinin mahiyyəti, əhatəsi izah edilir. Regional insan hüquqları sənədlərində ifadə azadlığının sərhədləri izah edilir. Xüsusilə, Avropa İnsan Hüquqları Konvensiyasının 10-cu maddəsinin müəyyən etdiyi çərçivə və məhdudiyyətlərdən bəhs edilir. Beynəlxalq sənədlərin ratifikasiya proseduru, yerli qanunvericilikdə beynəlxalq aktların yeri, tətbiqi izah edilir. Milli qanunvericilikdə ifadə azadlığının yer aldığı sənədlər, Konstitusiya və digər normativ aktlara təhlil olunur. Bu mövzu düşüncə azadlığının mahiyyətini, insan olmanın gərəyi olan düçüncələrə çatım hüququnu, düşüncələrini açıqlama hüququnu əhatə edir. Təməl insan hüquqlarından biri olan ifadə azadlığının ən önəmli hissəsi olan düşüncəyə sahib olma və düşüncəsində qalma azadlığının çərçivə və sərhədlərini  izah edir. Azadlıqların mütləq olmadığı, lakin öz rəyində qalma azadlığının çox az olan mütləq azadlıq kimi qoruma mexanizmi və xüsusiyyəti izah edilir. Bu sahədə Avropa İnsan Hüquqları Məhkəməsinin yanaşmasına yer verilir.

**ƏDƏBİYYAT SİYAHISI**


1. “İfadə Azadlığı Avropa İnsan hüquqları Avropa Konvensiyasının 10-cu maddəsinin şərhi və məzmunu üzrə bələdçi”, Tobi Mendel, Bakı -2012.
2. “İfadə Azadlığı, İnsan Hüquqları haqqında vəsait”, Monica Macoveri, N.2, Avropa Şurası: https://rm.coe.int/CoERMPublicCommonSearchServices/DisplayDCTMContent?documentId=090000168007ff48

# II. İfadə azadlığına tətbiq olunan məhdudiyyətlər

## 2. İfadə azadlığına tətbiq olunan məhdudiyyətlər: milli təhlükəsizlik, ərazi bütövlüyü və ictimai asayış

Bu mövzuda ifadə azadlığına gətirilən məhdudiyyətlərin sistemi əhatə olunacaq. Bu çərçivədə Avropa İnsan Hüquqları Konvensiyasının 10-cu maddəsinin 2-ci hissəsinin nəzərdə tutduğu məhdudiyyətlər, milli təhlükəsizlik və ərazi bütövlüyü, ictimai asayişin qorunması və cinayətin önlənməsi, milli və mənəvi dəyərlərin qorunması və əxlaqa zidd ifadələrin yolverilməzliyi, şəxsin nüfuzu, şərəf və ləyaqəti habelə özəl həyatın müdaxilələrdən qorunması, məhkəmənin nüfuzu və müstəqilliyi məsələləri haqqında ilkin məlumat veriləcək.

Bununla yanaşı Avropa İnsan Hüquqları Məhkəməsinin verdiyi qərarlarda ifadə azadlığının sərhədlərinin necə qorunduğu sistemli izah ediləcək, ifadə azadlığının qorunması aspektində kitabların yayımının qadağan edilməsi, nəşrin məhkəmə tərəfindən qadağan edilməsi, şəxsin müəyyən ərazidən qovulması, lisenziya verildikdən sonra süni maneələrin yaradılamsı, jurnalistin məxfi məlumat mənbəyinin qorunmasını tələb edən iddiasının rədd edilməsi və s. məsələləri əhatə edən məhkəmə qərarlarının mahiyyətinə toxunulacaq.

Bu mövzu çərçivəsində ifadə azadlığının məhdudlaşdırılmasına bəraət verən milli təhlükəsizlik və ərazi bütövlüyünün qorunması məsələsi geniş şəkildə əhatə olunacaq. Milli təhlükəsizlik sektorunun ciddi sahə olduğu və qorunmasında xüsusi mənafelərin olduğu, ölkə ərazisində insan hüquq və azadlıqlarının qorunması da daxil olmaqla demokratik düzənin davam etdirilməsi, dövlətin mövcudluğunun sürməsi ilə ifadə azadlığının balanslaşdırılması zəruriliyi izah ediləcək. Bununla yanaşı, tarixi keçmişdən bu günədək bəzən bu dəyərlərin bəhanə edərək insan hüquq və azadlıqlarına hökumətlərin müdaxiləsinə əsas verən addımlar atması, bu mənafeni bəhanə edərək sui-istifadə etməsi faktlarının mövcudluğu da xatırlanacaq.

Milli təhlükəsizlik və ərazi bütövlüyünü qoruma mənafelərinin müzakirəsi zamanı yerli məhkəmə təcrübəsinin problemləri, hakimlərin qərar verərkən onlara doğru yanaşmada müəyyən təsir edən problemlər mövcudluğu nəzərə çatdırılacaq. Bu baxımdan Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarının xüsusiyyətləri ifadə ediləcək. Xüsusilə, Observer və Guardian qəzetlərinin Böyük Britaniyaya qarşı işi bu məsələnin izahı üçün əsas müzakirə mövzusu olacaq.

Eyni zamanda Avropa Məhkəməsinin bəzən milli təhlükəsizliyə zərər vuran ifadələri qorumadığına dair yanaşmalar da bu mövzu daxilində əhatə olunacaq. Xüsusilə, 2008-ci ildə Leroy Fransaya qarşı işində məhkəmənin yanaşmasının xüsusiyyətləri çatdırılacaq. 11 sentyabr hücumlarından sonra yaradıcılıq məhsulu olan "Hamımız bunun arzusundaydıq...hamas da bunu etdi" adlı cizgi filmin terrorizmi təbliğ edə biləcəyi qənaətinə gələn Avropa İnsan Hüquqları Məhkəməsinin bu qərarı milli təhlükəsizlik mənafelərinin ifadə azadlığı ilə qarşılaşdığında bəzən ifadə azadlığının qorunmadığı da göstəriləcək.

## ƏDƏBİYYAT SİYAHISI

1. "İfadə Azadlığı Avropa İnsan hüquqları Avropa Konvensiyasının 10-cu maddəsinin şərhi və məzmunu üzrə bələdçi", Tobi Mendel, Bakı -2012.
2. "Gün işığı  Bələdçisi", Media Hüququ İnstitutu, ATƏT Media Azadlığı Ofisi, Bakı -2006.
3. "Media Peşakarları üçün əl kitabı",  Jurnalist Həmkarlar İttifaqı, Bakı 2012.

## 3. İfadə azadlığına tətbiq olunan məhdudiyyətlər; İğtişaşın və ya cinayətin qarşısının alınması, sağlamlığın və mənəviyyatın qorunması

Bu mövzu çərçivəsində “Polis haqqında” Azərbaycan Respublikası Qanunun müddəaları, Qanunun 5-ci maddəsi ilə polisin insan hüquq və azdlıqlarına dair daşıdığı öhdəliklər, ictimai asayışın qorunması zamanı hüquqi çərçivələr, fövqəladə vəziyyət haqqında qanunun tətbiqi zamanı insan hüquq və azadlıqlarının icrasına dair müəyyən edilən tələblər, sərbəst toplaşmaq azadlığı haqqında qanunvericiliyin müddəaları və kütləvi tədbirlərdə sərbəs toplaşmaq hüququna gətirilən məhdudiyyətlər, sərbəst toplaşmaq azadlığı çərçivəsində icazəli və icazəsiz aksiyaların fərqləndirilməsi və bu tədbirlərdə iştirak, habelə bu tədbirlərdən xəbərləmə və xəbərləmələrə gətirilən məhdudiyyətlərin legitim sərhədləri,  aksiyalar onların legitim hüquqi çərçivəsi, yazılı matreallların paylanması və buna gətirilə biləcək məhdudiyyətlərin çərçivəsi, kütləvi tədbirlər, nümayişlər zamanı ifadə edilən şüarlar, onların mahiyyətinə dair məhdudlaşdırmaların yolverilən hədləri araşdırılacaq.

Eyni zamanda, ictimai asayişin qorunması, cinayətin önlənməsi baxımından Avropa İnsan Hüquqları Məhkəməsinin geniş təcrübəsinə isnad ediləcək. 2008-ci ildə qəbul edilən Vajnai Macarıstana qarşı, Janovski Polşaya qarşı habelə Yılmaz Kılıç Türkiyəyə qarşı işlərinə dair qərarlardan nümunələr təqdim ediləcək,  qeyri-qanuni elan olunmuş qrupun icazəsiz təşkil etsə belə  dinc nümayişdə  iştirak etməsinin, ictimai asayişı pozmadığına dair qərarının arqumentləri təqdim ediləcək.

Bu mövzu çərçivəsində ifadə azadlığının hüquqi aspektdən milli-mənəvi dəyərlərin və ictimai əxlaqın qorunmasına görə hansı hallarda məhdudlaşdırıla biləcəyi, Konstitusiyada, konstitusiya qanununda, digər qanunvericilik aktlarında bununla bağlı nəzərdə tutulan məqamlar, xüsusilə, “Kütləvi informasiya vasitələri haqqında”

Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinin əhatəsi, habelə “İctimai televiziya və radio yayımı haqqında” Azərbaycan Respublikası Qanununda, “Teleradio yayımı haqqında” Azərbaycan Respublikası Qanununun 3-cü, 40-cı maddələrinin əhatəsi və tətbiq imkanları müzakirə ediləcək. İctimai əxlaqın qorunmasına görə anonim sosial şəbəkə profillərinin daşıyacağı məsuliyyət, habelə, birbaşa mülki və cinayət məcəllələrində nəzərdə tutulan hüquqi məsuliyyətin mahiyyəti, Azərbaycan məhkəmə təcrübəsinin önəmli məqamları təqdim ediləcək.

Avropa İnsan Hüquqları Konvensiyasının 10-cu maddəsinin tətbiqi çərçivəsində Avropa Məhkəməsinin ictimai əxlaqa görə qəbul etdiyi məhkəmə qərarları müzakirə ediləcək. Bunlardan, 1976-cı ildə qəbul edilən Handiside Böyük Britaniyaya qarşı işinin xüsusiyyətləri və nəticəsi təqdim ediləcə. 1988-ci ildə qəbul edilən Müller və başqaları İsveçrəyə qarşı işlərində Avropa İnsan Hüquqları Məhkəməsinin ictimai əxlaqı pozan, mənəviyyatı zədələyən açıq seksual rəsmlərin nümayişinə görə cərimələnmənin ifadə azadlığını pozmadığı qənaətinə gəlməsinin hüquqi arqumentləri izah ediləcək.

## ƏDƏBİYYAT SİYAHISI


1. “İfadə Azadlığı Avropa İnsan hüquqları Avropa Konvensiyasının 10-cu maddəsinin şərhi və məzmunu üzrə bələdçi”, Tobi Mendel, Bakı -2012.
2. ”Media hüququ: Jurnalistin hüquq bələdçisi”, Media Hüququ İmstitutu, Bakı -2011.
3. ”Jurnalistin Hüquq Məsləhətçisi” Media Hüququ İnstitutu, İnternyus, Bakı- 2001.
4. İfadə azadlığına tətbiq olunan məhdudiyyətlər: Ədalət məhkəməsinin nüfuz və qərəzsizliyinin təmin edilməsi və gizli əldə edilmiş məlumatların açıqlanmasının qarşısının alınması

Bu mövzuda Avropa İnsan Hüquqları Konvensiyasının 10-cu maddəsinin 2-ci bəndində ifadə azadlığını məhdudlaşdıra biləcək əsaslardan biri məhkəmənin nüfuzu və qərəzsizliyi təqdim ediləcək. Bu çərçivədə ədliyyə sisteminin müdafiə instiki ilə ifadə azadlığının sərhədlərinin kəsişməsindəki balansın necə qorunacağı, ədliyyə qurumlarının nüfuzunu qoruma səyləri ilə hakimlərin tənqidinin önlənməsi məsələlərinin necə ayrılacağı diqqət mərkəzində saxlanacaq. Avropa İnsan Hüquqları Məhkəməsi təcrübəsindəki ilk işlərdən olan 1979-cu il tarixli Sunday Times Böyük Britaniyaya qarşı işində ictimai əhəmiyyət daşıyan və məhkəmə baxışında olan bir işin cəmiyyətin müzakirəsi baxımından nə qədər önəmli olduğu, cəmiyyətin bilmə hüququnun necə aktuallaşdığı və bunun medianın informasiyalandırma vəzifəsindən heç də geri qalmadığı önəmli nümunədir.

Məhkəmə proseslərinə təsiri olan işlərdə Avropa İnsan Hüquqları Məhkəməsinin nə üçün ifadə azadlığına daha çox yer verdiyi izah edilən məsələlərdən olacaq. Hakimlərin tənqidinin hansı hallarda mümkünlüyü, tənqid sərhəddinin aşdıqda məhkəmənin nüfuzunun yox, diffamasiyanın tətbiq edilə biləcəyini göstərən De Haes ve Gijsels Belçikaya qarşı işi bu baxımdan maraqlı işlərdən biri kimi təqdim ediləcək.

Bu sahədə Azərbaycan qanunvericiliyindəki normalar, "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun tələbi, digər qanunlarda mövcud tələblər də izah olunacaq.

Bu mövzu başlığı altında ifadə azadlığının yerli məhkəmələrdə müdafiə mexanizmləri, yerli məhkəmələrin qərarlarının Avropa İnsan Hüquqları Məhkəməsinə çıxarılması proseduru, Avropa İnsan Hüquqları Məhkəməsinin mühakimə prosedurunun işlənməsi, testdən keçirilmə, qanunda nəzərdə tutulmanın mahiyyəti, qanunvericiliyin formalaşması prosesində legitim təmsilçilik, qanunlarda keyfiyyət, aydınlıq və anlaşıqlıq, məhdudiyyətlərin legitim məqsədə xidmət

etməsi, Konvensiyanın 10-cu maddəsinin 2-ci hissəsinin məhdud tətbiq edilməsi tendensiyası, demokratik cəmiyyətdə zərurilik testi, ağlabatanlıq, sosial zərurət anlayışı, mülahizə sərbəstliyinin sərhədləri, fakt və qiymətləndirici mülahizə-şərh ayrımı, ictimai fiqur, ictimai məkan, ictimai əhəmiyyət və ictimai maraq, sanksiyalar, sanksiyaların mütənasibliyi məsələləri habelə məhkəmənin çıxaracağı qərarın tətbiqi məsələsi, pozuntunu tanıma, qanunlara yenidən baxma, qanundan doğmayan pozuntuya səbəb olanların məsuliyyət məsələsi, maddi və mənəvi kompensasiya, məhkəmə qərarının ölkə üçün məcburi icrası və s. məsələlər işlənəcək.

**ƏDƏBİYYAT SİYAHISI**


1. "İfadə Azadlığı Avropa İnsan hüquqları Avropa Konvensiyasının 10-cu maddəsinin şərhi və məzmunu üzrə bələdçi", Tobi Mendel, Bakı -2012.
2. "Media hüququ: Jurnalistin hüquq bələdçisi", Media Hüququ İnstitutu, Bakı -2011.


**5. İfadə azadlığına tətbiq olunan məhdudiyyətlər: qanunla qorunan peşə sirləri və dövlət sirləri**

Bu mövzu əsasən ifadə azadlığının milli təhlükəsizlik və ərazi bütünlüyü aspektində dövlət sirləri ilə ifadə azadlığının mənafelərinin kəsişdiyi zaman necə davranılmalı olduğunu əhatə edəcək.

7 sentyabr 2004-cü il tarixdə Azərbaycan Respublikası Milli Məclisi tərəfindən qəbul edilmiş "Dövlət sirri haqqında" Azərbaycan Respublikası Qanunu, bu qanunun Azərbaycan Respublikasının təhlükəsizliyini təmin etmək məqsədi ilə məlumatların dövlət sirrinə aid edilməsi, mühafizəsi və istifadə edilməsi, onların məxfiləşdirilməsi və ya məxfiliyinin açılması ilə əlaqədar yaranan münasibətləri necə tənzimlədiyi göstəriləcək. Kütləvi informasiya vasitələrinin informasiya əldə etmə azadlıqlarının məhdudlaşdırıldığı məqamların

başında gələn dövlət sirri anlayışı açıqlanacaq, media azadlığı ilə bu qanunun qoruduğu mənafelər arasındakı münasibətlər izah ediləcək.  Qanunda yer alan hansı informasiyaların dövlət sirri sayıla biləcəyi, kimlərin dövlət sirri yarada biləcəyi, hansı əsaslardan istifadə ediləcəyi, məxfiləşdirilən məlumatların necə və hansı mərhələlərlə testdən keçiriləcəyi, dövlət sirri ilə işləmə qaydaları, sirlərin üzərinə məxfilik qriflərinin qoyulması və ya götürülməsi qaydaları və digər əlaqəli nüanslar izah ediləcək.

Dövlət sirri ilə işləmə qaydaları, sirlərlə işləməyə buraxılma zamanı keçiriləcək yoxlamalar, prosedurlar, qanunla qorunmalı olan sirlərin siyahısının açıqlığı, dövlət sirri anlayışı çərçivəsinə salınması qadağan olunan məlumatlar kateqoriyası habelə, dövlət sirrini yaymağa görə qanunvericilikdə müəyyən olunan hüquqi məsuliyyət, kimlərin hansı hallarda məsuliyyətə cəlb ediləcəyi, jurnalistlərin dövlət sirrinə görə hansı hallarda məsuliyyətə cəlb edilə biləcəyi və s. məsələlər bu mövzu altında incələnəcək. Ayrıca, ifadə azadlığı ilə dövlət sirlərinin qorunması arasındakı tarixi hadisələr, beynəlxalq məhkəmə qərarları bu başlıq altında təqdim ediləcək.

Bu mövzu ifadə azadlığı ilə kəsişən peşə sirlərini əhatə edəcək. Peşə sirrlərinin mahiyyətinin nədən ibarət olması, onların qorunmasındakı mənafe nədir bunlar izah ediləcək. Peşə sirləri kimi hansı sirlər qorunur, peşə (vəkil, notariat, həkim) sirləri ayrı ayrılıqda nədir bunlar cavabını tapacaq. Peşə sirlərindən vəkil sirlərinin spespik xüsusiyyəti nədir, “Vəkillər və vəkillik fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanunun 17-ci maddəsinə görə vəkilin peşə vəzifələrinin həyata keçirilməsi ilə əlaqədar aldığı məlumatlar, verdiyi məsləhətlər və arayışların hüquqi statusu, müraciət etmiş şəxsə hüquqi yardımın göstərilməsi ilə əlaqədar olaraq vəkilə məlum olmuş halların qorunması, izahata cəlb edilməsinin yolverilməzliyi, məlumatları yayamayacağı hallar, hansı hallarda ibtidai istintaqın sirrini təşkil edən məlumatların açıqlana biləcəyi, vəkil sirrini təşkil edən məlumatların vəkilin hüquqi yardım göstərdiyi cinayət, mülki və inzibati işlər üzrə,

həmçinin həmin vəkilin iştirakı ilə aparılan məhkəmə prosesində sübut kimi qiymətləndirilməsinin yolverilməzliyi, vəkil andı, vəkilin sirri qoruma vəzifəsi və buna uyğun olaraq məsuliyyətinin yaranması məsələləri mövzu çərçivəsində izah ediləcək.

"Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanunun 18-ci maddəsində yer alan vəkil etikası məsələsi, Qanunun 8-1-ci maddəsində sadəcə vəkillərin deyil, eyni zamanda vəkil köməkçilərinin də vəkil sirrini qorumalı olduğuna dair müddəalar bu çərçivədə təqdim ediləcək.

Bununla yanaşı, digər peşə sirri kimi notariat sirrinə dair tələblər də mövzu çərçivəsində ələ alınacaq. "Notariat haqqında" Azərbaycan Respublikası Qanununun 32-ci maddəsində göstərilən notariat hərəkətləri barədə məlumatlar, arayışlar və digər sənədlərin, notariusa müraciət edən vətəndaş haqqında, tapşırığın növü və xarakteri haqqında, yazılı sənədlərin məzmunu haqqında məlumatların notariat sirri hesab edildiyi və necə qorunduğu notariusların, notariat hərəkətlərini aparan digər vəzifəli şəxslərin və xidməti vəzifələrinin yerinə yetirilmələri ilə əlaqədar notariat hərəkətlərindən xəbərdar olan şəxslərin bu hərəkətlərin sirrini saxlamağa borclu olduğu mövzu çərçivəsində izah eidləcək. Hansı hallarda yalnız məhkəmə vasitəsi ilə notariat hərəkətləri barədə məlumat və sənədləri kimlərə verilə biləcəyi, bu zaman yaranacaq məsuliyyətin necə aradan qalxacağı mövzuda təqdim ediləcək.

Peşə sirlərindən olan həkim sirri nədir, bu hansı qanunvericilik aktlarında və necə qorunur, ümumiyyətlə, həkim sirrini təşkil edən, "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununun 29-cu və 53-cü maddələrinin tələbləri, şəxsin tibbi yardım üçün müraciət etməsi faktı, onun xəstəliyinin diaqnozu, sağlamlığının vəziyyəti, müayinə və müalicə vaxtı əldə edilən digər məlumatlar, süni mayalanma, embrionun implantasiyası, eləcə də donorun şəxsiyyəti barədə informasiyalar, "Psixiatriya

yardımı haqqında” Azərbaycan Respublikası Qanununun 7-ci maddəsinə görə şəxsin psixi sağlamlığının vəziyyəti və ona psixiatriya yardımı göstərilməsi haqqında məlumatlar və s. məlumatların necə və niyə qorunduğu, bunlara görə yaranacaq məsuliyyətin mahiyyəti, məsuliyyət daşıyan tərəflərin vəzifələri izah ediləcək. Bu çərçivədə, “İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliyin (AİDS) yayılmasının qarşısının alınması haqqında” Azərbaycan Respublikası Qanununun 18-ci maddəsinə görə səhiyyə və digər dövlət orqanlarının və təşkilatlarının işçiləri vəzifələrini yerinə yetirərkən tibbi müayinədən keçən şəxsdə HİVin aşkar edildiyini zaman necə davranmalı olduğu, “Narkoloji xidmət və nəzarət haqqında” Azərbaycan Respublikası Qanununun 7-ci maddəsinə əsasən narkoloji xidməti və nəzarəti həyata keçirən, habelə xidməti vəzifələri həyata keçirərkən qulluq mövqeyinə görə narkoloji xəstələr barəsində məlumatları əldə edən digər şəxslər məsuliyyəti mövzunnu əhatəsinə daxil olacaq. Bu istiqamətdə məhkəmə qərarlarından nümunələr təqdim ediləcək.

## ƏDƏBİYYAT SİYAHISI


1. “Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqlarının Müdafiəsi Mexanizmləri” Vəsaitlər Toplusu, Bakı- 2012.
2. “İfadə Azadlığı Avropa İnsan hüquqları Avropa Konvensiyasının 10-cu maddəsinin şərhi və məzmunu üzrə bələdçi”, Tobi Mendel, Bakı -2012.
3. ”Media hüququ: Jurnalistin hüquq bələdçisi”, Media Hüququ İnstitutu, Bakı -2011.
4. “Jurnalistika Bələdçisi”, Akif Qurbanov, Bakı. “OL” NTK, 2017.

# III. İNFORMASİYA ƏLDƏ ETMƏK HÜQUQU

## 6. İnformasiya Əldə etmək Hüququ

Bu mövzu ifadə azadlığına gedən ən önəmli yol olan bilgiləri, informasiyanı əldə etmək hüququnu əhatə edir. İnformasiya əldə etmək azadlığının tarixi inkişaf mərhələləri izlənir. Son 25-30 ildə bu hüququn dünyanın inkişaf etmiş ölkələrində təməl insan hüquqları kimi  müstəqil hüquq kimi necə önə çıxdığı izah edilir. İnformasiya azadlığının yaxşı idarəetmə ilə əlaqəsi, korrupsiyanı önləmədəki rolu, idarəetmədə vətəndaşların iştirakçılığına verdiyi töhfə izah edilir. İnformasiya əldə etmək hüququna mənbə təşkil edən beynəlxalq sənədlər, habelə Avropa Şurasının, ATƏT-in tövsiyyə xarakterli sənədləri, izahedici memorandumları, beynəlxalq qurumların müəyyən etdiyi standartlar, prinsiplər bu mövzunun əhatə dairəsinə aiddir. İnformasiyalı vətəndaşın iradəetməyə qatqısı, informasiya azadlığının siyasi azdlıqların və digər hüquq və azdlıqların qorunmasındakı təməl açar rolu izah edilir.

Bu mövzu dar çərçivədə informasiya əldə etmək hüququnun əhatəsini müəyyən edir. Ölkədə məlumat azadlığını tənzimləyən qanunvericilk aktlarına, qanunlara toxunulacaq, onların sistemi izah ediləcək. 2005-ci ildə qəbul edilən "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun sistemi açıqlanacaq, qanunun tənzimləmə sahəsi, İnformasiya əldə olunmasının əsas prinsipləri, informasiya sahibləri anlayışının əhatəsi, onların vəzifələri, öhdəlikləri, informasiya əldə olunmasının təşkilinə görə məsuliyyət, açıqlanmalı olan informasiyaların kateqoriyası, məhdud və açıq informasiyalar, xidməti informasiyalar və fərdi informasiyalar, internet informasiya ehtiyatlarının yaradılması müddəti, standartları göstəriləcək. Ayrıca, sorğularla informasiyanın tələb olunması formaları, informasiya əldə etmək hüququnun təminatı, informasiya azadlığı sahəsində Ombudsmanın səlahiyyətlərinin sərhəddi, müraciət qaydası və şərtləri, şikayətlərə baxılma, informasiya əldə etmək hüququnun pozulmasına görə yaranan inzibati məsuliyyət mövzunu əhatə edəcək.

**ƏDƏBİYYAT SİYAHISI**


1. "Özgür Medya Mevzuatı Raporu", Kerem Batır-Cem Pekman, Medya Enstitüsü-2003.
2. "Law and the Media Crone", T.:, 4th. Ed., Focal Press, 2002.
3. "Law and the Media, Sweet &amp", Hadwin, S./Bloy, D.: Maxwell, 2007.
4. "İnformasiya Əldə Etmək Haqqında Azərbaycan Respublikası Qanunun şərhi", Gənc İnsan Hüquq Müdafiəçiləri İctimai Birliyi, Bakı - 2006.


# IV. İFADƏ AZADLIĞI VƏ ÇAP MEDİASI, ELEKTRON MEDİA, TƏNZİMLƏYİCİ ORQAN VƏ İCTİMAİ YAYIM XİDMƏTİ

## 7. Mətbuat Azadlığı

Bu mövzu ənənəvi media olan mətbuatı əhatə edəcək. Xüsusilə KİV haqqında qanunvericiliyin mahiyyətini açacaq. Bura mətbuat azadlığını əhatəsi, mətbu orqanların , o cümlədən, qəzetlərin, jurnalların, informasiya agentliklərinin, televiziya və radioların, kinoxronika proqramlarının, internetin təsis olunmasını, onların fəaliyyətinin əhatəsini, jurnalist azadlığını, jurnalist peşə standartlarını, Jurnalist hüquqlarını və vəzifələrini, jurnalist mənbələrinin gizliliyinin qorunması məsələlərini, mətbuatın məsuliyyəti, jurnalistlərin azadlığına qanunsuz müdazilə zamanı yaranacaq hüquqi məsuliyyətləri, habelə, cinayət, inzibati, mükli məsuliyyət formalarını, onların əhatəsini izah edəcək.

**ƏDƏBİYYAT SİYAHISI**


1. Medya Hukuku, Eric Barendt, Lesley Hitchens, 2013.
2. Özgür Medya Mevzuatı Raporu, Kerem Batır-Cem Pekman, Medya Enstitüsü-2003.
3. Law and the Media Crone, T.:, 4th. Ed., Focal Press, 2002.

4. Media Law, Carey, P./Sanders, J3rd. Ed., Sweet & Maxwell,2000
5. Monica Macoveri, İfadə Azadlığı, İnsan Hüquqları haqqında Vəsait, N.2, Avropa Şurası:https://rm.coe.int/CoERMPublicCommonSearchServices/DisplayDCTMContent?documeId=090000168007ff48
6. ”Media hüququ: Jurnalistin hüquq bələdçisi”, Media Hüququ İnstitutu, Bakı -2011.
7. Medya Hukuku, Eric Barendt, Lesley Hitchens, 2013.
8. “Media Law”, Carey, P./Sanders, J3rd. Ed., Sweet & Maxwell, 2004.

## 8. Elektron Media və Müstəqil Tənzimləyici Orqanın Rolu. Televiziya və radio yayımı azadlığı, İctimai Yayım

Bu mövzu Beynəlxalq sənədlərdə, həmçinin Avropa Şurası Nazirlər Komitəsinin “Yayım bölümündə düzənləyici qurumların müstəqilliyi və funksiyaları haqqında üzv dövlətlərə Nazirlər Komitəsinin Rec (2000) 23 Tövsiyələri” baxımından mövcud qanunvericiliyin problemləri, Avropada ictimai yayımı tənzimləyən sənədlər, Avropa Şurası Nazirlər Komitəsinin yayım mediasının tənzimlənməsinə dair tövsiyələri, ictimai yayıma verilən tələblərə dair tövsiyələri, beynəlxalq normaları əhatə edəcək. Ölkədə teleradio sahəsini tənzimləyən qanunvericiliyin, teleradio yayımı, ictimai yayım haqqında qanunların əhatəsini izah edəcək. Mövzunun izahı eyni zamanda bu problemləri əhatə edəcək: Azərbaycanda fəaliyyətdə olan televiziya və radio yayımçıları haqqında ümumi məlumat; Televiziyalar; Təsisçisi dövlət və ya müvafiq icra hakimiyyətləri olan, yaxud dövlət büdcəsindən maliyyələşdirilən televiziyalar; Ümumrespublika televiziya yayımçıları; Regional televiziya yayımçıları; Xarici dövlət və ictimai yayımçılar; Özəl televiziyalar ; Ümumrespublika özəl televiziya yayımçıları; Regional özəl televiziya yayımçıları; Xarici özəl televiziya yayımçıları; Radiolar; Təsisçisi dövlət və ya müvafiq icra hakimiyyətləri olan, yaxud dövlət büdcəsindən və ya xarici dövlət

və hökumətlər tərəfindən maliyyələşdirilən radiolar; Xarici radio stansiyalar; Ümumrespublika özəl radiolar; Regional radiolar; Xarici radio stansiyalar; Teleradio sahəsində dövlət tənzimləməsinin həyata keçirilməsi; Lisenziyalaşdırmanın vəziyyəti; Teleradio sahəsindəki qanunvericiliyin vəziyyəti; İnternet üzərindən yayım məsələləri.

Azərbaycanda tctimai yayımın formalaşması ilə bağlı hökumətin siyasi öhdəlikləri, qanunvericiliyin formalaşması prosesi, "İctimai yayım haqqında" Azərbaycan Respublikası Qanununun mahiyyəti, ictimai yayım sahəsində Avropa məkanında mövcud olan beynəlxalq sənədlər, normalar və göstərişlər, o cümlədən:

- «Milli yayımın rolu və idarəsi» Avropa Şurasının 748 (1975) saylı Tövsiyəsi;
- «İctimai Teleradio yayımının gələcəyi» Avropa Nazirlər Konfransının Qətnaməsi; (Praqa) 4-8.12.1994;
- «İctimai yayım xidmətinin müstəqilliyinin təminatı» Avropa Şurası Nazirlər Komitəsinin R(96) 10 saylı Qətnaməsi;
- «Kütləvi informasiya vasitələrində plüralizmin stimullaşdırılması», Avropa Şurası Nazirlər Komitəsinin R(99) 1 saylı Tövsiyyəsi.

Bu sənədlərdən ən vacibi ictimai yayım fəaliyyətinin müstəqilliyinə təminatı düzənləyən «İctimai yayım xidmətinin müstəqilliyinin təminatı» adlı Avropa Şurası Nazirlər Komitəsinin R(96) 10 saylı Qətnaməsinin mahiyyəti, xüsusilə, ictimai yayım xidmətinin müstəqilliyini əhatə edən 22 prinsip mövzunun əsasını təşkil edir.

İctimai Yayımın mövcudluğu üçün zəruri olan aşağıdakı prinsiplər geniş izah ediləcək:

- Siyasi və iqtisadi müdaxilənin yolverilməzliyinin qanuni təminatı;
- Yayım qurumunun muxtarlığı və jurnalistlərin müstəqilliyinin qanuni təminatı;
- Yayım Şurasının daxili nəzarət qurumları qarşısında məsuliyyəti;

- Yayım Şurasının 3-cü şəxslərin hüquq və mənafelərinin qorunması ilə bağlı məsuliyyəti;
- Senzuranın yolverilməzliyi;
- İdarəetmədə şəffaflıq;
- Yayım Şurası üzvlərinin seçimində dövlət orqanlarının müdaxiləsinin yolverilməzliyi;
- Yayım Şurası üzvlərinin fəaliyyət müstəqilliyinin təmini;
- Yayım Şurası və Düzənləmə Qurumunun fəaliyyətində şəffaflıq;
- Yayım Şurasının daxili (Müşahidə Şurası) və xarici (Parlament Komissiyası) qarşısında hesab verməsi;
- Yayım Şurası üzvlərinin direktorun fəaliyyətini qiymətləndirərkən, faktlara və qanuna əsaslanması, onun məhkəmə və ya müstəqil arbitraja müraciət imkanının olması;
- İctimai yayımın yayım fəaliyyətinə nəzarət mexanizmasının hüquqi əsasları olması və bütün ölçülərin konkret göstərilməsi;
- İctimai yayımın bütün kollektivinin  siyasi və digər təzyiqlərdən qorunması;
- Yaradıcı kollektivin  işinə uyğun əmək haqqı ilə təmin edilməsi, əmək intizamının basqı məqsədi ilə istifadəsinin yolverilməzliyi;
- Yaradıcı kollektivin  əvvəlcə  söz və peşə azadlığı çərçivəsində iqtisadi və sosial hüquqlarını  qorumaq məqsədi ilə təşkilatlanma hüququnun  olması (həmkar və s.);
- İctimai yayıma sabit və davamlı fəaliyyətini təmin edəcək qədər maliyyə imkanının yaradılması (maliyyə müstəqilliyi olmalı ki, bu yayım öz fəaliyyətində müstəqilliyi qoruya bilsin);
- Maliyyə ifrastrukrurunun şəffaflığı;
- Maliyyə nəzarətinin sərhədinin  mühasibat uçotu və maliyyəsi ilə bağlı idari qaydalara uyğunluğu ilə  məhdudlaşdırılması;
- Yayımların cəmiyyətin bütün təbəqələrinin mənafelərinə uyğunluğu;
- İctimai yayımla hökumət arasındakı münasibətlərin sərhədinin qanunda göstərilməsi; (rəsmi informasiyalarla hökumətin fəaliyyətini əks etdirən tanıtma bir-birinə qarışdırılmamalı, rəsmi məlumatların cəmiyyətə çatdırılması , və cəmiyyətn  mənafelərinə xidmət etdikdə təqdim edilməlidir.);
- Hökumət üçün yer və zaman ayrılması nəzərdə tutulursa, hökmən

müxalifətə də eyni həcmdə  yer və zaman ayrılmalısı;

- İctimai yayımın son texnologiya imkanlardan istifadə edərək yayımlarını kütləyə çatdırması.

## ƏDƏBİYYAT SİYAHISI


1. ”Azərbayanda Televiziya və radio fəaliyyətinin hüquqi vəziyyəti”, Media Hüququ İnstitutu, ATƏT Media Azadlığı Ofisi, Bakı – 2007.
2. ”Jurnalistin Hüquq Məsləhətçisi” Media Hüququ İnstitutu-İnternyus, Bakı -2001.
3. “Medya Hukuku”, Eric Barendt, Lesley Hitchens, 2013.
4. “Özgür Medya Mevzuatı Raporu”,  Kerem Batır-Cem Pekman, Medya Enstitüsü-2003.
5. “Law and the Media Crone”, T.:, 4th. Ed., Focal Press, 2002.
6. “Azərbaycanda İctimai Yayım”, Ələsgər Məmmədli, Media Hüququ İnstitutu-İnternyus, Bakı- 2004.
7. «Teleradio Yayımı Düzənləmə Qurulları», Ələsgər Məmmədli, Rəşid Hacılı,  Media Hüququ İnstitutu –İnternyus ,  Bakı -2003.
8. “Yayım sektoru üzrə tənzimləyici orqanların müstəqilliyi və funksiyaları haqqında Avropa Şurasının REC (2000) 23 saylı Tövsiyyəsi”
9. Karol Jakubouicz, “Avropada Media İnqilabı:  əyri boyunca irəliləyiş”, Avropa Şurası, 2011.

# V. DİGƏR ŞƏXSLƏRİN HÜQUQLARI İFADƏ AZADLIĞINA TƏTBİQ OLUNAN İCAZƏ VERİLƏN MƏHDUDİYYƏT KİMİ

Bu hissədə ifadə azadlığına tətbiq olunan və “icazə verilən” hesab edilməsi üçün Avropa İnsan Hüquqları Məhkəməsinin testindən keçməli olan məhdudiyyətlərdən bəhs edilir. Sözügedən test bu sualları əhatə edir: ifadə azadlığına qarşı tətbiq olunan məhdudiyyət qanunla nəzərdə tutulubmu, məhdudiyyət legitim məqsəd güdürmü və demokratik cəmiyyətdə zəruridirmi? Bu cür məhdudiyyətlərə şəxsi həyat hüququ, şəxsin şərəf və ləyaqətinə hörmət hüququ, diffamasiya, nifrət nitqi və din azadlığı aiddir.

## 9. İfadə Azadlığı və Şəxsi Həyata Hörmət Hüququ

Bu mövzu çərçivəsində şəxsin özəl həyatını qoruyan Azərbaycan Respublikası Konstitusiyasının 32-ci maddəsinin əhatəsi, özəl həyatın ayrı-ayrı məqamları, şəxsin qoruma altında olmayan ümumi həyat sahəsi, şəxsin qismən qoruma altında olan özəl həyat sahəsi və şəxsin tam qoruma altında olan gizli həyat sahəsi geniş şəkildə izah ediləcək, şəxsin gizli həyat sahəsinə girən bilgilərinə - şəxsin gizli duyğu və fikirləri, ümidləri, qorxuları, arzuları, həyat hadisələri, intim həyatı, gizli saxladığı düşüncələri, dini inancı, ailə münasibətləri kimi daxili aləminə aid məlumatlarla yanaşı, şəxsin yazışmaları (eşq məktubu, elektron söhbəti, teleqraf, xatirə dəftəri və s.) kimi xarici mühitlə əlaqəli məlumat və hadisələr də daxil ola biləcəyi, gizli həyat toxunulmaz olmaqla yanaşı şəxsi həyatın özəyini təşkil etdiyindən hər cür müdaxilələrdən qorunduğu, bu sahə¬yə aid məlumatların hər kəsə, o cümlədən də jurnalistlərə qapalı olduğu və qanunla qorunduğu, buna müdaxilələrin mülki, və cinayət məsuliyyəti yaratdığı izah ediləcək. Öz razılığı olmadan kimsənin şəxsi həyatı haqqında məlumatın toplanılmasına, saxlanılmasına, istifadəsinə və yayılmasına yol verilməmə nə deməkdir, “onun xəbəri olmadan” şərti nə deməkdir, bunun hüquqi aspektləri nələrdir, hansı hallarda şəkilişə

icazə tələb olunmaz, gizli kameradan istifadə nə zaman mümkündür, nə zaman və hansı şərtlərlə gizli çəkilən görüntülərdən istifadə ola bilər, ictimai məkan nədir, ictimai əhəmiyyətli şəxs və ictimai xadim anlayışları çərçivəsində özəl həyata yanaşma dəyişirmi kimi məsələlər geniş nümunələrlə təqdim ediləcək.

Ayrıca fərdi məlumatlar nələrdir, şəxsin özünə aid bilgilərə nələr daxildir, ailə həyatına aid bilgilərin əhatəsi nədir, fərdi məlumatlarla kimlər və necə işləyə bilər, fərdi məlumatlar kimə verilə bilər, fərdi məlumatların qoruma rejimi nədir sualları bu mövzu çərçivəsində geniş təqdim ediləcək.

Mövzu çərçivəsində Avropa Məhkəməsi təcrübəsinə yer veriləcək xüsusilə, şəxsi həyatı qoruyan Avropa İnsan hüquqları Konvensiyasının 8-ci maddəsi ilə 10-cu maddənin kəsişdiyi işlərdə Avropa məhkəməsinin yanaşması təqdim ediləcək. 2001-ci ildə Tammer Estoniya qarşı işində Məhkəmənin şəxsi həyatı qorumasına verdiyi üstünlüklə, 2004-cü ildə Edition Plon Fransaya qarşı qərarında əks qərarı ilə 10-cu maddənin üstünlüyünü tanımasındakı fərqlər izah ediləcək.

## ƏDƏBİYYAT SİYAHISI


1. “İfadə Azadlığı Avropa İnsan hüquqları Avropa Konvensiyasının 10-cu maddəsinin şərhi və məzmunu üzrə bələdçi”, Tobi Mendel, Bakı -2012.
2. Özgür Medya Mevzuatı Raporu, Kerem Batır-Cem Pekman, Medya Enstitüsü-2003.
3. “Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqlarının Müdafiəsi Mexanizmləri”, Vəsaitlər Toplusu, Bakı- 2012.
4. ”Media hüququ: Jurnalistin hüquq bələdçisi”, Media Hüququ İnstitutu, Bakı -2011.
5. “Avropa İnsan Hüquqları Konvensiyasına əsasən şəxsi həyata və ailə həyatına hörmət Hüququnun Qorunması”, İvana Roagna,

Avropa Şurasının insan hüquqları üzrə bələdçi vəsaitləri, Avropa Şurası, Strasburq, 2012.

6. Avropa Şurasının İfadə Azadlığı və Şəxsi həyat Hüququ ilə bağlı Məlumat Bülletenləri, "Şəxsin İmicinin Qorunması Hüququ haqqında AİHM-nin AŞ Məlumat Bülleteni", aprel 2015-ci il.

## 10. İfadə Azadlığı və Şəxsin Şərəf və Ləyaqətinə Hörmət, Diffamasiya

Bu mövzu aşağıdakı bölümlərlə izah olunacaq: Şərəf nədir, ləyaqət nədir, işgüzar nüfuz nədir, necə qorunur, jurnalist şərəf, ləyaqətini alçaldılması, işgüzar nüfuzuna xələl gətirilməməsi üçün nələrə diqqət etməli, diffamasiya nədir, diffamasiyaya yol verən jurnalistin məsuliyyəti, diffamasiyaya hansı hallarda haqq qazandırmaq olar, Avropa İnsan Hüquqları Məhkəməsin təcrübəsində ifadə azadlığı ilə diffamasiya arasındakı balans necə qorunur?

Avropa məhkəməsi qərarlarından Azərbaycana qarşı olan Ağazadə və Mahmudov Azərbaycana qarşı işinin incəlikləri habelə Fətullayev Azərbaycana qarşı işinin xüsusiyyətləri bu mövzu çərçivəsində təqdim ediləcək, bu sahədə diffamasiyanın olub-olmaması baxımından maraqlı işlərdən olan Dyuldin və Kislov Rusiyaya qarşı işində diffamasiyanın subyekti kimdir müzakirəsi bu mövzu başlığı altında maraqlı müzakirə yaradacaq.

Ayrıca, Avropa Məhkəməsinin diffomativ ifadələrlə ifadə azadlığı arasında balansı müəyyən etmək baxımından ən maraqlı işi olan Lingens Avstriyaya qarşı işi də xüsusi incələnəcək.

Bundan əlavə son vaxtlar Avropa Şurası üzv dövlətlərin bəzilərində diffamasiyanın dekriminallaşmasına dair ard-arda başlayan qanun qəbulu prosesi, diffamasiya haqqında Qanunda olması zəruri məqamlar, xüsusilə bu sahədəki anlayışların - diffamativ məlumatlar, yayılma, rəy, ictimai maraq daşıyan ifadə, ictimai şəxs, inzibati orqan

açıqlanması veriləcək. Diffamasiya işlərinə baxan məhkəmələrin izləməli olduğu yol, mübahisələrin məhkəmədənkənar həlli qaydaları, diffamasiya işlərində sübutetmə məsələləri və məsuliyyətdən tam və şərti azadetmə halları və digər zəruri məqamlar izah ediləcək.

Xüsusilə ölkə qanunvericiliyinin durumu, son dönəmlər qanunvericiliyə gətirilən yeni tənzimləmələr, sosial mediada anonim hesablara dair məsuliyyət məsələsi və s. məsələlər də mövzu çərçivəsində təqdim olunacaq.

**ƏDƏBİYYAT SİYAHISI**


1. "İfadə Azadlığı Avropa İnsan hüquqları Avropa Konvensiyasının 10-cu maddəsinin şərhi və məzmunu üzrə bələdçi", Tobi Mendel, Bakı -2012.
2. "Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqlarının Müdafiəsi Mexanizmləri", Vəsaitlər Toplusu, Bakı- 2012.
3. "Defamasiya və İfadə Azadlığı (seçilmiş sənədlər)", Avropa Şurası, Media Şöbəsi, İnsan Hüquqları üzrə Baş Direktorluq, Strasburq, mart 2003-cü il.
4. "Avropa İttifaqında Defamasiya haqqında Qanun: Jurnalistlər üçün Müqayisəli Xülasə, Vətəndaş Cəmiyyəti və Siyasi xadimlər", Beynəlxalq Mətbuat İnstitutu, yanvar 2015-ci il (Ümumi İstifadə lisenziyası əsasında əldə etmək mümkündür).
5. "Defamasiya anlayışının müəyyən edilməsi: İfadə Azadlığı və Nüfuzun Qorunması üzrə Prinsiplər", Beynəlxalq Standart Seriyaları, 19-cu Maddə, London, iyul 2010-cu il.


## 11. İfadə Azadlığı və Nifrət Nitqi

Bu mövzu altında nifrətli nitqin nə olduğu, nifrətə çağırış, bu ifadələrin ifadə azadlığı baxımından nədən daha az qoruma altında olduğu, nifrətli nitqin və çağırışın cinayət məsuliyyətinə Avropa Məhkəməsinin münasibəti, bununla difffamasıyanın və sərt tənqidin arasındakı fərqlər

və s. müzakirə ediləcək. Bu sahədə Avropa Məhkəməsi təcrübəsi, habelə mövcud qanunvericilik, habelə Cinayət Məcəlləsinin 283-cü maddəsi və əlaqəli digər maddələr incələnəcək.

Digərlərinin hüquqları baxımından dini etiqadın qorunması, dini inanclara daha həssas yanaşılma, ifadə azadlığı ilə bu dəyərin kəsişməsində Avropa Məhkəməsinin dini etiqadı daha çox nədən qoruduğu, bu sahədə mövcud qanunvericiliyin sərhədləri mövzu baxımından təqdim ediləcək.

**ƏDƏBİYYAT SİYAHISI**


1. "İfadə Azadlığı Avropa İnsan hüquqları Avropa Konvensiyasının 10-cu maddəsinin şərhi və məzmunu üzrə bələdçi", Tobi Mendel, Bakı -2012.
2. "Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqlarının Müdafiəsi Mexanizmləri", Vəsaitlər Toplusu, Bakı- 2012.
3. "Gün işığı qaçılmazdır", Media hüququ İnstitutu, Bakı-2005.
4. "İfadə Azadlığının Qorunması: Avropa İnsan Hüquqları Məhkəməsinin Presedent Hüququnda Nifrət Nitqi Məsələsi", Oitheimer, Mario, Kardozo Beynəlxalq və Müqayisəli Hüquq Jurnalı (Cardozo Journal of International & Comparative Law), 9 noyabr 2009-cu il, səh. 427 – 443.
5. Avropa İnsan Hüquqları Məhkəməsinin "Nifrət nitqi" haqqında məlumat bülleteni, AİHM, iyul 2013-cü il.


## 12. İfadə Azadlığı və Din Azadlığı

Bu mövzu altında nifrətli nitqin nə olduğu, nifrətə çağırış, bu ifadələrin ifadə azadlığı baxımından nədən daha az qoruma altında olduğu, nifrətli nitqin və çağırışın cinayət məsuliyyətinə Avropa Məhkəməsinin münasibəti, bununla difffamasıyanın və sərt tənqid arasındakı fərqlər və s. müzakirə ediləcək. Bu sahədə Avropa İnsan Hüquqları Məhkəməsi təcrübəsi, habelə mövcud qanunvericilik, habelə

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 283-cü maddəsi və əlaqəli digər maddələr izah olunacaq.

Digərlərinin hüquqları baxımından dini etiqadın qorunması, dini inanclara daha həssas yanaşılma, ifadə azadlığı ilə bu dəyərin kəsişməsində Avropa Məhkəməsinin dini etiqadı daha çox nədən qoruduğu, bu sahədə mövcud qanunvericiliyin sərhədləri mövzu baxımından təqdim ediləcək.

**ƏDƏBİYYAT SİYAHISI**


1. "İfadə Azadlığı Avropa İnsan hüquqları Avropa Konvensiyasının 10-cu maddəsinin şərhi və məzmunu üzrə bələdçi", Tobi Mendel, Bakı -2012.
2. "Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqlarının Müdafiəsi Mexanizmləri", Vəsaitlər Toplusu, Bakı- 2012.
3. "Gün işığı qaçılmazdır", Media hüququ İnstitutu, Bakı-2005.
4. "Avropa İnsan Hüquqları Konvensiyasına əsasən fikir, vicdan və din azadlığı hüququnun qorunması" Avropa Şurasının insan hüquqları üzrə bələdçi vəsaitləri, Murdoc, Jim, Avropa Şurası, Strasburq, 2012.
5. Fikir, Vicdan və Din Azadlığı Prinsipləri və Digər İnsan Hüquqları ilə Əlaqələri ilə bağlı Avropa Şurası standartlarının toplusu, İnsan Hüquqları üzrə İcraiyyə Komitəsi (CDDH) tərəfindən 19 iyun 2015-ci ildə qəbul edilmişdir.
6. Parlament Assambleyasının İfadə Azadlığı və dini inanclara hörmət haqqında 1510 (2006) saylı 28 iyun 2006-cı il tarixli Qətnaməsi.


## 13. Ayrı-seçkilik və İfadə Azadlığı

Cinsi, irqi, rengi, dili, dini əqidə, fəlsəfi ve siyası görüşləri, etnik kökləri, sərvəti, mənşəyi, mədəni statusu, sağlamlıq durumu, əlilliyi və ya yaşı ilə bağlı ayiseçkilik salmaq qanunla qadağandır. Bunun həm özəl, həm ictimai sferada qarşısını almaq üçün ardıcıl tədbirlər gerşəkləşdirilməlidir.

## ƏDƏBİYYAT SİYAHISI


1. Azərbaycan Respublikasının Konstitusiyası
2. Law and the Media, Sweet &  Hadwin, S./Bloy, D.: Maxwell, 2007.


# VI. JURNALİST MƏNBƏLƏRİNİN MƏXFİLİYİNİN QORUNMASI

## 14. Jurnalist Mənbələrinin Məxfiliyinin Qorunması

Mövzu jurnalistin informasiya mənbələrinin gizliliyinin qorunmasının zəruriliyindən bəhs edəcək. Cəmiyyətdə ictimai nəzarətçı rolu oynayan jurnalistlər üçün informasiya mənbələri çox önəmli olduğundan bu mənbələrin hesabına cəmiyyəti bilgiləndirmək mümkün olur. Jurnalist mənbələrinin gizliliyi qorunmasa, onlara informasiya sızdıran mənbələr deşifrə olsa bir daha informasiya verməzlər.

Jurnalist mənbələrinin gizliliyinin qorunması zəruriliyini vurğulayan Qudvin Böyük Britaniyaya qarşı işi bu baxımdan xüsusi əhəmiyyət kəsb edir və təqdimatda əsas işlərdən biri olacaq.

Mövzu izah edilərkən nədən Avropa İnsan Hüquqları Məhkəməsi jurnalist mənbələrinin gizliliyini mətbuat azadlığının əsas şərtlərindən biri hesab etdiyi, mətbuatın "nəzarətçi köpək" funksiyasını həyata keçirməsi üçün mənbənin gizliliyinin nədən həyati önəm daşıdığı və ifadə azadlığına verdiyi dəyər üzərində durulacaq.  Mövzu ilə bağlı olan digər məhkəmə qərarlarına da yer veriləcək.

Xüsusilə jurnalist mənbələrinin qorunması baxımından ciddi əhəmiyyət daşıyan Avropa İnsan Hüquqları Məhkəməsinin  Nordisk Film & TV A/S/ Danimarkaya qarşı ( 8 Dekabr 2005),  Voskuil Hollandaya qarşı ( 22 Noyabr 2007), Financial Times Ltd və digərləri Böyük Britaniyaya qarşı ( 15 Dekabr 2009), Sanoma Uitgevers B.V.  Hollandaya qarşı

(14 Sentyabr 2010), Telegraaf Media Nederland Landeliike Media B.V. və digərləri Hollandaya qarşı (22 Noyabr 2012) işlərindəki ifadə azadlığına verdiyi dəyər və onun nədən qorunduğu səbəbləri izah ediləcək.

Mənbənin gizliliyi baxımından jurnalistin ev və iş yerində axtarış aparılması, onun kompüterlərinin və istifadə etdiyi digər vasitələrin müsadirə edilməsi, götürülməsi, zorla alınmasının yaradacağı hüquqi problemlər, bu istiqamətdə Avropa İnsan Hüquqları Məhkəməsinin təcrübəsi işığında ələ alınacaq.
Mövzu çərçivəsində ölkə qanunvericiliyindəki vəziyyət, mənbələrin qizliliyinin hansı hallarda məhkəmə qərarı ilə açıqlanmasının tələb edilə biləcəyi, bunun tətbiqi zamanı jurnalistin davranış imkanları izah ediləcək.

**ƏDƏBİYYAT SİYAHISI**


1. ”Jurnalistin Hüquq Məsləhətçisi”, Media Hüququ İnstitutu-İnternyus, Bakı -2001.
2. ”Media hüququ: Jurnalistin hüquq bələdçisi”, Media Hüququ İnstitutu, Bakı -2011
3. “Law and the Media, Sweet &amp”, Hadwin, S./Bloy, D.: Maxwell, 2007.


# VII. İNTERNETDƏ İFADƏ AZADLIĞI

## 15. İnternet Azadlığı

Mövzu İnternet azadlığı, İnternetin tarixi inkişafı, internetin beynəlxalq hüquqi çətiri, İnternet yayımlarında ardıcıllıq, internetin hüquqi tənzimlənməsinin əhatəsi, Azərbaycanda telekommunikasiya sektorunun qanunvericilik bazası, ratifikasiya edilən beynəlxalq sənədlər, Azərbaycan Respublikasında internetin telekommunikasiya vasitəsi olaraq tənzimlənməsinin hüquqi əsası və problemləri,

telekommunikasiya sahəsində sağlam rəqabət mühitinin və antiinhisar fəaliyyətin tənzimlənməsi,İnternet rabitəsi xidmətlərindən istifadə qaydaları, AZ domenindən istifadənin tənzimlənmə problemləri, İnternet xidmətləri üçün Nümunəvi Müqavilə, Şəbəkə təhlükəsizliyi məsələlərini əhatə edəcək. Ayrıca, İnternet ictimaiyyətini özünü tənzimləmə formalarını, İnternet üzərindən yayımların hüquqi məsuliyyət məsələlərini izah edəcək.

Bu mövzu altında ənənəvi media ilə yeni media arasındakı oxşar və fərqli tərəflər izah ediləcək. Yeni medianın bütün aspektələri, onun formaları, sosial media, xalq jurnalistikası, bunların online media ilə fərqləri, 2.0 veb texnologiyasının ənənəvi mediadan fərqlənən tərəfləri əhatəli şəkildə izah ediləcək.

Geniş istifadəçisi olan sosial şəbəkələrin bir-birinə oxşar və bir-birindən fərqli tərəfləri öyrəniləcək. Sosial şəbəkələrdə hesabların açılması, idarə olunması, təhlükəsizlik tədbirlərinin görülməsi, hesabların tənzimlənməsi izah ediləcək. Jurnalistlərin öz işlərində sosial media alətlərindən necə effektli istifadə etmə imkanları da bu çərçivədə öyrədiləcək mövzulara daxil ediləcək.

Sosial medianın hüquqları ifadə azadlığı və informasiya əldə etmək və yaymaq azadlığı aspektindən əhatə oluncaq. Sosial mediada yayılan fikirlərin, ifadələrin məsuliyyət sərhərləri, qanunla qorunan hüquqi mənafelərin mahiyyəti bu çərçivədə izah ediləcək.

Sosial mediada yayılan statusların birbaşa yaradacağı məsuliyyətinin xüsusiyyətləri ilə statuslara üçüncü şəxslər tərəfindən yazılan şərhlərin yaradacağı hüquqi məsuliyyətin şərtləri, qaydaları, beynəlxalq hüquq prinsipləri çərçivəsində izlənməli olan yol bu mövzu çərçivəsində təqdim ediləcək.

## ƏDƏBİYYAT SİYAHISI


1. ”Media hüququ: Jurnalistin hüquq bələdçisi”, Media Hüququ İmstitutu, Bakı -2011.
2. “Gün işığı  Bələdçisi “, Media Hüququ İnstitutu, ATƏT Media Azadlığı Ofisi, Bakı -2006.
3. ”Jurnalistin Hüquq Məsləhətçisi”, Media Hüququ İnstitutu-İnternyus, Bakı -2001.
4. “İnternet üzərindən yayılan məlumata görə etik və hüquqi məsuliyyət”, Jurnalistlərin Həmkarlar İttifaqı, Bakı, 2014.
5. “İnternet Hüququ”, Yayımların Monitorinq Mərkəzi, Bakı, 2009.


## ƏLAVƏ ƏDƏBIYYAT


1. Prof. Wolfgang Benedek və Dr Matthias C. Kettemann, “İfadə Azadlığı və İnternet”, Avropa Şurasının Nəşri, 2004: https://book.coe.int/eur/en/human-rights-and-democracy/5810-freedom-of-expression-and-the-internet.html
2. Dan Gillmor, “Biz Media - We the Media – Xalq tərəfindən, Xalq Üçün Kütləvi Jurnalistika”, O’Reilly Media, 2006.
3. J. Surculija (Ed.), “İnternetdə İfadə Azadlığı”, İnternet İnkişaf Mərkəzi, Belqrad, 2010 (Ümumi İstifadə lisenziyası əsasında əldə etmək mümkündür): http://www.fpn.bg.ac.rs/wp-content/uploads/2016/07/sloboda-izrazavanja-na-internetu.pdf (səh. 107-199)

## Kazus 1

## “RUSİYAYA GEDƏNLƏR CƏMİYYƏTİN “OTXODLARI”DIR” – Deputatdan ŞOK sözlər!

120 saylı Cəbrayıl-Qubadlı seçki dairəsindən seçilmiş deputat Astan Şahverdiyev saytlardan birinə müsahibəsində Azərbaycanın digər ölkələrdə çalışan əmək miqrantları haqqında qeyri-etik ifadələr işlədib. Tələbələr bu müsahibədə ifadə azadlığı və siyasətçi məsuliyyəti haqqında qənaətlərini formalaşdırmalıdırlar.

***Mənbə: http://azpolitika.info/?p=279951***

## Kazus 2

“ Rus səfirinin rəsm sərgisində qətlə yetirilməsi görüntüləri”
Rus səfiri Karlovun qətli anı və qatilin olaydan sonra bir necə dəqiqə ərzində dedikləri ilə əlaqədar- tələbələr bu situasiyada ifadə azadlığı problemi ziddiyyətlərini araşdırmalı, bu olayda qatilin ifadə azadlığı haqqı tanınmalıdırmı?

***Mənbə: https://www.youtube.com/watch?v=f6frVc_Do5U***

## Kazus 3

Miqranta təpik vuran qadın jurnalist işdən qovuldu
Bu materialda macar jurnalistin miqranta qaçmağa mane olaraq ona badalaq vurması kadrları- nifrətli davranış kimi qiymətləndirmək olarmı. Tələbələr bu görüntülərlə bağlı öz qənaətlərini formalaşdırmalıdırlar. Dərsin sonuna komandalarla ishləyən hər qrup öz nəticəsini səsləndirməlidir.

***Mənbə: http://www.reaksiya.az/news/dunyadan-reaksiya/4738-miqranta-tepik-vuran-qadin-jurnalist-isden-qovuldu***

## Kazus 4

“Kıbrıs’ta gözaltına alınan modacı Barbaros Şansal akşam saatlerinde Türkiye’ye gönderildi”

Modelyer Barbaros Şansal 2017 ci il təbriki adi ilə Tvitter hesabında yerləşdirdiyi kəskin məzmunlu çıxışına görə həbs olunub. Tələbələr çixışın məzmununu incələyərək, təhlil etməlidirlər, ifadə azadlığı rakursdan olayı qiymətləndirməlidirlər.

***Mənbə: http://www.diken.com.tr/kibrista-gozaltina-alinan-modaci-barbaros-sansal-aksam-saatlerinde-turkiyeye-gonderildi/***

## Kazus 5

“Trump-dan ABŞ kəşfiyyatına və öz partiyasına hücum”

Mərkəzi Kəşfiyyat İdarəsi (CİA) və Federal Təhqiqat Bürosu (FBI) daxil olmaqla bir neçə ABŞ kəşfiyyat orqanı Donald Trump-ın prezident seçkisini qazanması üçün Demokrat Partiyası və onun namizədi Hillary Clintona yönəlik kiberhücumların Rusiya tərəfindən idarə edildiyinə inanır.

Cənab Trump əvvəl bu iddiaların “cəfəngiyyat” olduğu desə də, daha sonra “vəziyyətlə bağlı faktlar barədə məlumatlandırılmaq” üçün ABŞ kəşfiyyat rəhbərləri ilə görüşəcəyini deyib.

Prezident olaraq Tramp bu tip bəyənatlarını ifadə azadlığı elementi hesab etmək olarmı, tələbələr bu situasiyanı təhlil və izah etməlidirlər.

***Mənbə: http://www.bbc.com/azeri/international38505772***

## Kazus 6

“Hürriyet Gazetesi’ne 100 kişilik baskın”

Rəcəb Tayyip Erdoğanın ATV canlı yayımda söylediyi, “400 vekil alınsaydı bunlar olmazdı” sözlerini Twitterdə paylaşan Hürriyet qəzeti redaksiyasına basqın edildi. Demokratik ölkələrdə ifadə azadlığı ilə bağlı belə fəakiyyətlərin qarçısı necə alına bilər, tələbələr bununla bağlı fəaliyyət strategiyası hazırlayaraq, əsaslandırmalıdırlar.

***Mənbə: http://www.gercekgundem.com/medya/153093/hurriyet-gazetesine-100-kisilik-baskin***

## Kazus 7

“ Istanbulda gecə klubunda həlak olan Nuranə Həsənova ilə bağlı bilinməyən faktlar”

Yeni il gecəsi İstanbulun Ortaköy rayonunda yerləşən “Reina” gecə klubuna hücum zamanı törədilmiş terror aktı nəticəsində həlak olan Azərbaycan vətəndaşı Nuranə Həsənova ilə bağlı sosial şəbəkələrdə güclü müzakirələrə səbəb olan müxtəlif fikirlər əks olundu. Tələbələr şəxsin özəl həyatına müdaxilə baxımından bu situasiyanı araşdıraraq öz fikirlərini ifadə etməlidirlər.

***Mənbə: http://sonxeber.az/32862/gece-klubundaki-terrorda-yaralanan-2-azerbaycanlidan-yeni-xeber***

Jurnalistika fakültələrinin magistr pilləsində tədris olunan “Kütləvi kommunikasiya və ifadə azadlığı” kursu üzrə proqram Avropa İttifaqı və Avropa Şurasının birgə “Azərbaycanda ifadə azadlığı və media azadlığı” layihəsi çərçivəsində hazırlanmışdır. Proqramın hazırlanmasında yerli və xarici ekspertlər iştirak etmişdir.

AZE

Avropa Şurası qitənin insan hüquqlarını müdafiə edən aparıcı təşkilatıdır. Onun 47 üzv dövlətindən 28-i eyni zamanda Avropa İttifaqının üzvüdür. Avropa Şurasının bütün üzv dövlətləri insan hüquqları, demokratiya və qanunun aliliyini qorumağı nəzərdə tutan Avropa İnsan Hüquqları Konvensiyasını imzalayıblar. Avropa İnsan Hüquqları Məhkəməsi Konvensiyanın üzv dövlətlərdə həyata keçirilməsinə nəzarət edir.

**www.coe.int**

Avropa Ittifaqı 28 demokratik Avropa dövləti arasında yeganə iqtisadi və siyasi əməkdaşlıqdır. Onun məqsədləri 500 milyon vətəndaşı üçün daha ədalətli və təhlükəsiz dünyada sülh, firavanlıq və azadlıqdır. Buna nail olmaq üçün Aİ ölkələri onun fəaliyyətini həyata keçirməsi və qanunvericiliyini qəbul etməsi üçün qurumlar yaradıblar. Onlardan ən əsası Avropa İttifaqı (Avropa xalqını təmsil edən), Avropa ittifaqı Şurası (milli hökumətləri təmsil edən) və Avropa Komissiyasıdır (ümumi Aİ maraqlarını təmsil edən).

**http://europa.eu**

Partnership for Good Governance
Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq

EUROPEAN UNION

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE